# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun**
**2014-cü ildə elan edilərək keçirilmiş**
**3-cü "ŞUŞA QRANTI" müsabiqəsinin (EİF/MQM-3-Shusha-2014-7(22))**
**qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycanın Ağdam rayonu toponimlərinin və dialektlərinin toplanılması və linqvistik təhlili**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əliyeva Aynurə Sabir qızı**
Qrantın məbləği: **25 000 manat**
Layihənin nömrəsi: **EİF/MQM-3-Şuşa-2014-7(22)-05/03/5-M-04**
Müqavilənin imzalanma tarixi: **11 dekabr 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 yanvar 2016-cı il-01 yanvar 2017-ci il**
**Diqqət**! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | 1. Layihənin həyata keçirilməsi üzrə plana əsasən Bakı şəhəri və qəsəbələrində məcburi köçkünlərin kompakt yaşadığı yerlərdə, həmçinin Ağdamın Quzanlı kəndində, Bərdə və Mingəçevirdə yaşı 40-dan yuxarı çoxsaylı Ağdam sakinindən rayon ərazisinə məxsus bir çox toponim və dialekt sözlərinin toplanılmasına nail olmuşuq.Toponim və dialekt sözləri vasitəsi ilə hər bir xalqın etnik- tarixi məsələlərinin araşdırılmasının mümkünlüyünü nəzərə alaraq bu qiymətli dil materiallarının öyrənilməsi və toplanılmasında son dərəcə diqqətli olmuş, eyni zamanda toponimlər haqqında rəvayətləri-xalq etimologiyalarını da yerli əhalinin dilindən yazıya almışıq;<br>2. Ağdam sakinlərindən toplanılan dil materiallarına əsaslanaraq linqvistik təhlil aparmış, əsaslı elmi nəticələr əldə etmişik. Ağdamın dialekt sözlərinin fonetikası və leksikası üzərində aparılan tədqiqatın nəticələrindən bəlli olur ki, bu sözlərdə fonetik və leksik fərqlər çoxdur. Bu fərqlərin |

| | |
|---|---|
| | öyrənilib üzə çıxarılması dil tariximizin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir.Ağdam toponimlərinin leksik tərkibində arxaik elementlər və dialekt ünsürləri müşahidə edilir ki, bunların da araşdırılması dilimizin bir sıra qaranlıq məsələlərinə aydınlıq gətirməkdə yardımçı rolunu oynaya bilər. Həmçinin tədqiqata cəlb edilən Ağdam toponimlərinin struktur-qrammatik tiplərini, modellərini, leksik-semantik tərkibini tədqiq etməklə xalqımızın ən qədim tarixinin mühüm cəhətlərini öyrənmiş oluruq. Azərbaycanın tarixi torpağı olan Ağdam rayonunun çox hissəsi (Ağdam şəhəri də daxil olmaqla 87 kənd) hal-hazirda erməni qəsbkarlarının tapdağı altındadır. Əldə etdiyimiz dil faktları və apardığımız elmi təhlillər Ağdamın, bütövlükdə Qarabağ bölgəsinin ta qədim dövrlərdən türk tayfalarının yaşayış məskəni olması fikrini bir daha təsdiqləyir;<br>3. Layihə mövzusu ilə bağlı müxtəlif elmi jurnallarda (yerli və xarici) məqalələr çap etdirmiş, elmi konfranslarda (respublika və beynəlxalq) tezislərlə çıxış etmişik.Çap etdirdiyimiz məqalə və tezislərdə Ağdam ərazisinə məxsus toponim və dialekt sözlərini leksik-semantik və etimoloji cəhətdən təhlil etməklə həmin torpaqların dil mənsubiyyətinin məhz Azərbaycan türklərinə məxsus olduğunu dil faktları ilə əsaslandırmışıq;<br>4. Aparılan tədqiqata uyğun çoxsaylı elmi əsər və monoqrafiyalardan istifadə etmiş, polimikalar aparmışıq;<br>5. Ağdam ərazisinə aid toponimik vahidlərin və dialekt sözlərinin toplanılmasında anket üsulundan, informatorlarla söhbət, sual və tapşırıqlardan istifadə edilmişdir. Həmin problemlərin öyrənilməsində isə müqayisə üsulundan istifadə edilmişdir.Bu üsulun köməyi ilə Ağdam ətrafı rayonların dialekt faktları qarşılaşdırılmış, müqayisə olunmuş və elmi-əməli nəticələrə gəlinmişdir.Eləcə də, Ağdam toponimlərinin, xüsusən də etnotoponimlərin (tayfa adları əsasında yaranmış toponimlər) yayilma arealları müəyyənləşdirilmişdir. Hər iki məsələyə yeni bir yanaşmadan-antroposentrik yanaşmadan baxılmışdır. Bu yanaşma öncə insan amilini nəzərə alan müasir yanaşmadır. |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *90 faiz* |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | *Layihənin mühüm elmi-nəzəri qənaətləri belədir: Ağdam bölgəsinə məxsus toponimik vahidlər və dialekt sözləri ilk dəfə olaraq həmin ərazinin daşıyıcıları tərəfindən toplanılaraq sistemə salınmış və linqvistik yöndə təhlil edilmişdir. Ağdama aid dialekt və şivələr 1953-cü ildə ilk dəfə P. Ağayev tərəfindən öyrənilsə də, o zamandan çox illər keçib.Bu müddət ərzində Ağdam rayonuna məxsus dialekt sözlərinin fonetik, qrammatik, leksik laylarında özünü göstərən xüsusiyyətlərin yeni metodlarla üzə çıxarılması yerli əhalinin dilcə Oğuz mənşəli olduğunu, milli soy-ad sistemində baş vermiş dəyişmələrin spesifikasını göstərir. Ağdam toponimləri yeni inzibati-ərazi bölgüsündən, qədim yazılı abidələrdən ("Orxon-Yenisey" abidələri, "Kitabi-Dədə Qorqud" eposu, "Divanü-lüğat-it-türk" və s.), başqa lüğətlərdən götürülmüş və tarixi-linqvistik istiqamətdə araşdırılmışdır. Bu ərazidə yaşayan xalqın etnogenizində türk tayfalarının durduğu elmi şəkildə əsaslandırılmışdır. Bu da yerli əhalinin mənşəyi, etnik tərkibi, dil mənsubiyyəti barədə tutarlı dəlilləri özündə inikas etdirir;*<br>*- Zəngin ərazi materialları göstərir ki, Ağdam bölgəsinin toponimləri də coğrafi, tarixi-etnoqrafik və linqvistik qanunauyğunluqlarla birbaşa bağlıdır. Araşdırmamız sübut edir ki, yerli adların verilməsində təbii hadisələr obyektlərin daxili mahiyyəti, ərazinin tarixi şəraiti, əhalinin miqrasiyası, qonşuluq və qohumluq əlaqələri başlıca rol oynamışdır;*<br>*- Toplanmış faktik materiallara əsasən deyə bilərik ki, tədqiq olunan ərazinin əksəriyyəti dominat hissələr əsasında formalaşmışdır;*<br>*- Toponimlərin tədqiqi nəticəsində toponimik tərkibdə qədim arxaik və dialektal elementlər də* |

| | |
|---|---|
| | *aşkar edilmişdir;*<br>*- Ağdam toponimlərinin əmələ gəlməsində müxtəlif səpkili coğrafi terminlər də aktiv rol oynamışdır;*<br>*- Ağdam bölgəsinə məxsus etnotoponimlərin linqvistik istiqamətdə təhlili göstərir ki, bu ərazidəki etnotoponimlər qədim leksik vahidlərdən olub, həmin ərazinin tarixən türk tayfalarına aidliyini bildirir;*<br>*- Ağdamın toponimik təbəqəsi üçün -lı, -li, -lu, -lü; -lar-lər tipik formantları xarakterikdir. Həmin formantlarla əmələ gəlmiş oykonimlərin ilkin komponenti şəxs adları olmuş və onlar yaşayış məntəqəsinin salınmasında əsas rola malikdir;*<br>*- İnformatorlardan topladığımız materiallar sübut edir ki, Ağdam rayonunun makrotoponimik və mikrotoponimik layı olduqca zəngindir. Onların hərtərəfli araşdırılması olduqca gərəklidir. Ağdamın toponimik sərvətinin tədqiq edilməsi milli onomastikamızı dünyaya tanıtmağın , eyni zamanda Azərbaycan toponimlərinin qədimliyini göstərməyin ən optimal yoludur. Siyasi və ideoloji baxımdan böyük önəm daşıyan Qarabağ, o cümlədən Ağdam toponimlərinin toplanması, sistemləşdirilməsi və tarixi-linqvistik xüsusiyyətlərinin öyrənilməsi Azərbaycan dövlətçilik tarixi baxımından da olduqca vacibdir. Siyasi və ideoloji tərəflərinə toxunmadan bu bölgənin ta qədimdən türk mənşəli olduğunu , azərbaycanlıların Qarabağda, o cümlədən Ağdamda əzəldən yaşamaları, bu torpaqların ilkin sakinləri və sahibləri olması faktı elmi əsaslarla , toponimlərin dili ilə də təsdiq olunur. Əminliklə deyə bilərik ki, bədnam "Gülüstan" və "Türkmənçay" müqavilələrinə, yəni XIX əsrin ikinci onilliklərinə qədər Qarabağda, həmçinin bu bölgəyə aid olan Ağdamda erməni-hay adlı etnos, tayfa, qəbilə olmamış, yaşamamışdır.*<br>*Əldə edilən nəticələr müasir dil, dil tarixi, dialektologiya üçün mühüm əhəmiyyət kəsb edir.Müasir Azərbaycan ədəbi dilinin leksik, qrammatik, semantik sisteminin inkişafında toponimik vahidlərin rolu da vardır. Müasir Azərbaycan dilində qrammatikləşmə prosesi, yeni söz yaratma, yeni məna kəsb etmə və s. dil hadisələri eyni zamanda, özünü toponimik leksikada da biruzə verir. Buna görə də müasir dilin ayrı-ayrı sahələrinin tədrisi və tədqiqi zamanı toponimik vahidləri də bu prosesə cəlb etmək olar. Həmçinin toponimik və dialektik materiallar dil tarixinin öyrənilməsində zəngin mənbədir. Bir sıra dil hadisələri daşlaşmış şəkildə qədim toponimlərdə, hidronimlərdə, etnonimlərdə və dialekt sözlərində yaşamaqdadır.*<br>*Toponimik vahidlər dialekt və şivələrin öyrənilməsində də əvəzsiz mənbədir. Belə ki, qədim dialekt və şivə xüsusiyyətləri ümumi dialekt sözlərindən daha çox yer, tayfa, nəsil adlarında özünü göstərir. Məsələn, "al", "ağ", "qara", "ban "sözlərinin dialekt və şivələrdə müxtəlif məna variantları vardır. Bu sözlər vasitəsi ilə yaranan toponimlərdə də həmin mənalar diqqəti cəlb edir.* |
| 4 | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | **Layihə rəhbəri: Əliyeva Aynurə Sabir qızı.**<br>1. Qarabağ toponiminin etimologiyası. Məqalə. AMEA-nın Naxçıvan bölməsi. İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun “Axtarılşlar” jurnalı, Cild 6, Naxçıvan, 2016, N 1, s.132-136.<br>2. Ağdamın bəzi yer-yurd adlarının leksik-semantik xüsusiyyətləri. Məqalə. Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Ali məktəblərarası elmi məqalələr məcmuəsi, Bakı, 2016, N 1. s.33-37.<br>3. Ağdam rayonunun bəzi antropotoponimləri. Məqalə. Filologiya məsələləri, Bakı, 2016, N 1. s. 224-229. http://www.filologiyameseleleri.net/pdf/2016/2.pdf<br>4. Qarabağın bəzi xarakterik toponimləri. Tezis. Xalq şairi B.Vahabzadənin 90 illik yubileyinə həsr |

olunmuş “İnsan və zaman” mövzusunda Respublika elmi konfransının materialları, 26-27 noyabr, Bakı, ADPU, 2016. s.37-40.
5. “Kitabi-Dədə Qorqud” dastanlarında işlənmiş bəzi xarakterik toponimlər. Tezis. “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illik yubileyinə həsr olunmuş “Türk epos düşüncəsi yazılı abidələrdə” mövzusunda Respublika Elmi Konfransının materialları, 19-20 noyabr, Bakı, ADPU, 2016. s.22-27.
6. Ağdamın bəzi el-oba adları. Məqalə. Filologiya məsələləri №6, Bakı, 2016, s.151-158.
7. Ağdam rayonunun fiziki-coğrafi və tarixi-etnoqrafik xüsusiyyətləri. Məqalə. AMEA-nın Naxçıvan bölməsi. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Axtarışlar jurnalı. Cild 6, №3, Bakı, 2016. s.190-194.
8. Ağdamın İmamqulubəyli toponimi. Tezis. Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransı. Azərbaycan Neft və Sənaye Universiteti, 24-25 may. Bakı, 2016. s.44-46.
9. Ağdam toponiminin semantikası haqqında. Məqalə. AMEA-nın Naxçıvan bölməsi. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Axtarışlar jurnalı. Cild 6, N 2, Bakı, 2016. s. 103-109.
10. Ağdamın bəzi yer-yurd adlarının leksik xüsusiyyətləri. Tezis. Azərbaycan Xalqının Ümumummilli Lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı. Qafqaz Universiteti, 29-30 aprel 2016, Bakı (II kitab), s.940-941.
11.Лексико-семантические особенности некоторых топонимов Агдамского района Азербайджана."Вестник КазНУ имени Аль-Фараби". Серия востоковедения.№4 (79),2016, с.,134-140. http://bulletin-orientalism.kaznu.kz/index.php/1-vostok/article/view/987/907
12. Füzuli rayonunun I komponenti aşağı, yuxarı, birinci və s. sözləri, II komponemti şəxs adı və mənsubiyyət şəkilçili antropotoponimləri. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı. Mühəndislik Universiteti. 05-06, May 2017, Bakı (II kitab),s. 577-578. www.yric.az
13. Qarabağın İslam dini ilə bağlı İmamqulubəyli və Şıxbabalı toponimi. Məqalə. "İslam həmrəyliyi elm və təhsildə: hədəflər və çağırışlar". Respublika elmi konfransının materialları. ADPU, Bakı, 2017. s. 54-59.
14. Qarabağin İslam dini ilə bağlı bəzi toponimləri. Məqalə. Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, N-2 (102), BDU, Bakı, 2017. s.,99-102. http://yazikiliteratura.com
15.Ağdamın bəzi qədim toponimləri. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi Konfransı. Mühəndislik Universiteti. 27-28 aprel 2018. Bakı (II kitab),
16. Ağdamın Qasımlı və Qiyaslı toponimləri. Tezis. Gənc tədqiqatçıların I Respublika elmi-praktik konfransının materialları. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunur. 20 aprel 2018-ci il. Azərbaycan Universiteti, s.130-131. www.au.edu.az

**İcraçı: Cəfərov Əlvan Arif oğlu.**
1. Ağdam rayonu dialektlərində bəzi sözlərin leksiki xüsusiyyətləri. Məqalə. Pedaqoji Universitetin Xəbərləri. Bakı, 2015. N-3, s.252-256.
2. Ağdam rayonu dialektlərində səs artımı və səs düşümü hadisəsi. Məqalə. Filologiya məsələləri jurnalı, Bakı, 2016, № 1, s.,198-202.http://www.filologiyameseleleri.net/pdf/2016/2.pdf
3. Ağdam rayon şivələrində bəzi sözlərin digər dialektlərlə müqayisəli təhlili. Məqalə. AMEA Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Axtarışlar jurnalı, Cild 6, № 2. Naxçıvan 2016, s.137-142.
4. Ağdam rayon şivələrində isimlər. Məqalə. Filologiya məsələləri jurnalı, Bakı, 2016, № 6, s. 158-163.
5. Qarabağın Ağdam şivələrinin morfoloji xüsusiyyətləri. Məqalə. AMEA Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Axtarışlar jurnalı, Cild 6, № 3. Naxçıvan 2016, s.144-148

6. “Ağdam rayon dialektlərində işlənən söz birləşmələrində səs düşümü və səs artimi hadisəsi” Məqalə. “Humanitar elmlərin öyrənilməsinin aktual problemləri” jurnalı. Bakı Slavyan Universiteti. № 3. 2016, s.3-7.
7. “Kitabi-Dədə Qorqud” dastanı və Ağdam rayonu dialektlərində işlənən söz birləşmələrinin xüsusiyyətləri”. AMEA Naxçıvan bölməsi, İncəsənət, dil və ədəbiyyat institutu. Axtarışlar jurnalı, Cild 7, № 1. Naxçıvan 2017,s.128-133. http://www.elibrary.az/cgi/irbis64r/cgiirbis_64.exe
8. “The pronouns in the dialects of Aghdam of Garabagh” Məqalə Qazaxıstan Respublikası "Вестник КазНУ имени Аль-Фараби" серия востоковедения № 4 (79) 2016, s.178-182. http://bulletin-orientalism.kaznu.kz/index.php/1-vostok/article/view/987/907
9. 28 sentyabr – 1 oktyabr 2016 cı il tarixində Türkiyə Respublikası Ərzincan şəhəri Ərzincan Universitetində “Uluslararasi Erzincan Sempozyumu”, “Karabağ'ın Ağdam bölgesi ağzı ile Doğu Anadolu'nun Erzincan ili ağızlarında isimlerin bazı ortak özellikleri” adlı məqalə ilə iştirak etmiş və sertifikat almışam. Məqalə. Erzincan, 2016, s. 507-516. https://drive.google.com/drive/folders/0B_lOlZTMPkIzX0lXQl8wcmdBWnM
10. “Qərbi Azərbaycan və Ağdam rayon dialektlərində səsartımı hadisəsi”. Tezis. 24-25 may 2016-cı il tarixində Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təşkil etdiyi, Doktorantların və Gənc tədqiqatçıların XX Respublika Elmi Konfransı, s. 34-37.
11. Karabağın Ağdam Ağızlarında Alınma Sözlərin Leksiki Özəllikləri. Türkiye Respublikası, Atatürk Universitet i Sosyal bilimler Enstitüsü dergisi, İyun 2017 21(2), s. 505-512. http://dergipark.gov.tr/ataunisosbil/issue/34503

İxtira və patentlər, səmərələşdirici təkliflər

*Görülən işlərin faydası. əhəmiyyəti böyükdür. Layihə işi səmərəli hala salınmış, təkmilləşdirilmişdir. Layihə işindən doğan aşağıdakı səmərələşdirici təklifləri irəli sürə bilərik:*
*- Bölgədə, müharibə şəraitində təhsil prosesini daha da təkmilləşdirmək və müvafiq dil situasiyası yaratmaq məqsədi ilə tədbirlər planı hazırlansın;*
*- Layihənin nəticələrindən gələcək tədqiqatlarda məqsədə uyğun şəkildə istifadə edilsin;*
*- Respublikada digər rayonların da toponim və dialekt faktlarının toplanması məqsədəuyğun şəkildə həyata keşirilsin;*
*- Ayrıca bölgəyə dair toponimik lüğətlər (izahlı) nəşr edilsin;*
*- Ayrıca bölgəyə dair dialektoloji lüğətlər (izahlı) nəşr edilsin;*
*- Ağdam dialektinin toplanması və tətbiqində yeni təsnifatlar əsas götürülsün (prof. E. Əzizovun təsnifatı daha məqsədəuyğundur).*

**6** Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir)

*Layihə işi üzrə verilən plana uyğun olaraq 1-ci rübdə - yanvar, fevral və mart aylarında Abşeron rayonu "Mehdiabad Gənclər Şəhərciyi"ndə, Abşeron rayonu Mehdiabad qəsəbəsində yerləşən "Qarant" yaşayış kompleksində, Qaradağ rayonu Müşviqabadda yerləşən "Məcburi köçkün qəsəbəsi"ndə və Xəzər rayonu Buzovna qəsəbəsi "Xəzər" sanatoriyasında məcburi köçkünlərin müvəqqəti yaşadığı yaşayış məntəqələrində ezamiyyətlərdə olmuş, rayon ictimaiyyəti (məktəb direktorları, müəllimləri, rayonun tanınıb seçilən adamları və s.) ilə görüşlər keçirmiş, müsahibə və anket üsullarından istifadə etməklə məqsədəuyğun şəkildə dil materiallarını toplamağa nail olmuşuq. Həmçinin 2-ci rübdə-aprel, may, iyun aylarında Ağdamın Quzanlı, Bənövşələr kəndində, Mingəçevir və Bərdə rayonlarında məcburi köçkünlər üçün salınmış Yeni qəsəbələrdə ezamiyyətlərdə olmuşuq. Rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov bizim ezamiyyətimizin məqsədini bildikdən sonra müavini Ağa Zeynalova ezamiyyə üçün bizə şərait*

| | |
|---|---|
| | *yaradilmasını və köməklik edilməsi üçün tapşırıq verdi. Mingəçevir və Bərdə rayonlarında da ezamiyyə olduğumuz məcburi köçkünlərin müvəqqəti yaşadığı yaşayış məntəqələrində yaşayan sakinlərdən dil materialları toplamışıq.Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Mingəçevir şəhəri üzrə nümayəndəsi Hüseyn Yusifov, Bərdə rayonu üzrə nümayəndəsi Sərdar Zeynalov Ağdam sakinləri ilə görüşlərimizin baş tutmasında öz köməklərini bizdən əsirgəməmişdir.* |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | 23.07.2016-cı il tarixdə Ağdam rayonunun işğal tarixi ilə bağlı "Şəhidlər xiyabanı"nda və eyni tarixdə Cəfər Cabbarlı adına kitabxanada təşkil olunmuş Ağdam rayonunun işğal olunması günü ilə bağlı keçirilən tədbirlərdə iştirak etmişik. |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | 14.10.2016-cı il tarixdə Xəzər rayonunun Buzovna qəsəbəsində yerləşən 38 saylı Ağdam tam orta məktəbdə " Toponimlərimiz tarixi yaddaşımızdır" adlı seminar ;<br>21.12.2016-ci ildə ADPU-nun "Dədə Qorqud elmi-tədqiqat laboratoriyası"nda "Kİtabi Dədə Qorqud" eposu ilə bağlanan Qarabağin bəzi etnotoponimləri" adli seminarlarım olmuşdur.<br>a) məruzənin növü: şifahi;<br>b) tədbirin kateqoriyası: ölkədaxili. |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *Kompüter, Hast disk.* |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | *AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun əməkdaşları- prof. İ. Məmmədov , prof. Q. Kazımov, prof. Q. Məşədiyev, prof. R. Eyvazova; ADPU-nun əməkdaşları- prof. B. Xəlilov, prof. Ə. Tanrıverdiyev, prof. N. Əsgərov və s.* |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | Özbəkistan və Türkiyə Universitetlərinin alimləri ( Özbəkistan Dövlət Universiteti, prof. Saodat Muxamedova; Atatürk Universiteti, prof. Muhammed Taşdəmir; Hacıtepe Universiteti, prof. Nureddin Demir və s.) ilə elmi əlaqələrimiz mövcuddur. |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | |

| | |
|---|---|
| | |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
Quliyeva Mülayim Sahib qızı

___________________
*(imza)*
“ __” ________ 201_-cı il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Əliyeva Aynurə Sabir qızı

_________________
*(imza)*
“ __” ________ 201_-cı il